**“Azərişıq” ASC-nin fəaliyyətinin 5 illiyinə həsr olunmuş “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən sahəvi jurnalistikanın stimullaşdırılması məqsədilə birgə təşkil edilən təlimlərin və yazı müsabiqəsinin keçirilməsi**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (bundan sonra – Təşkilatçılar) tərəfindən birgə təşkil edilən təlimlərin və yazı müsabiqəsinin (bundan sonra – Təlim-müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Təlim-müsabiqənin keçirilməsində məqsəd jurnalistləri energetika sahəsinin xüsusiyyətləri və “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – ASC) 5 illik fəaliyyəti ilə tanış etmək, həmin dövr ərzində əldə olunmuş nailiyyətlərin və tətbiq edilən yeniliklərin işıqlandırılmasını, bu sahədə jurnalist tədqiqatlarının aparılmasını və sahəvi jurnalistikanın inkişafını stimullaşdırmaqdır.

1.3. Təlim-müsabiqənin keçirilmə tarixi Təşkilatçılar tərəfindən müəyyən edilir, Təlim-müsabiqədə iştirak etmək üçün müraciətlər Təlim-müsabiqə elan edildiyi tarixdən 7 (yeddi) gün müddətində qəbul olunur.

1.4. Təlim-müsabiqə barədə elan və Təlim-müsabiqədə iştirak etmək üçün müraciət forması haqqında məlumat Təşkilatçıların rəsmi internet saytlarında, habelə rəsmi sosial şəbəkə hesablarında yerləşdirilir.

1.5. Təlim-müsabiqənin keçirilməsinə ümumi nəzarət Təşkilatçılar tərəfindən həyata keçirilir.

## 2. Təlim-müsabiqənin təşkili

2.1. Bu Qaydaların 1.3-cü bəndində nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra təqdim edilmiş müraciətlər ekspertlər tərəfindən qiymətləndirilir və Təlim-müsabiqədə iştirak etmək istəyini əsaslandırılmış və Azərbaycan dilinin ədəbi normalarına uyğun şəkildə ifadə etmiş müraciətçinin Təlim-müsabiqədə iştirakının uyğunluğu barədə rəy tərtib olunur.

2.2. Təlim-müsabiqənin iştirakçıları Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (bundan sonra – Fond) rəsmi internet saytında yerləşdirilmiş müvafiq müraciət formasını tam doldurmuş müraciətçilər arasından bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş rəy əsasında 25 (iyirmi beş) nəfər olmaqla seçilir və müvafiq qaydada məlumatlandırılır.

2.3. Təlim-müsabiqə iki mərhələdən ibarətdir: təlimlər və müsabiqə mərhələsi.

2.4. İştirakçılar ASC tərəfindən müəyyənləşdirilmiş proqram əsasında ilk 4 gün təlimlərdə, növbəti 2 gün isə ASC-nin “Yarımstansiya muzeyi”nə və “Yeni Yaşma” Külək Elektrik Parkına ekskursiyalarda iştirak edir.

2.5. İştirakçılar istisnasız olaraq bütün təlimlərdə və ekskursiyalarda iştirak edir.

2.6. Bu Qaydaların 2.5-ci bəndinin şərtlərinə cavab verən iştirakçılar müsabiqə mərhələsinə buraxılır.

2.7. Təlim-müsabiqəninin keçirilməsinin bütün mərhələlərində Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi xüsusi qaydaların, habelə texniki təhlükəsizlik, sanitariya və gigiyena qaydalarının təmin olunmasına nəzarət ASC tərəfindən həyata keçirilir.

2.8. Müsabiqə mərhələsinə buraxılmış iştirakçılar təşkilatçılar tərəfindən müəyyən edilmiş müddət ərzində “Azərişıq” ASC-nin 5 illik fəaliyyəti – inkişafın işıq surəti” mövzusunda aşağıdakı tələblərə cavab verən yazı təqdim edirlər:

2.8.1. Yazının həcmi 1500 – 1600 söz aralığında olmalı;

2.8.2. Yazı A4 kağızına uyğun formatda, səhifədə soldan – 25 mm, sağdan – 15 mm, yuxarı və aşağıdan – 20 mm boş sahə saxlanılmaqla hazırlanmalı;

2.8.3. Tam düzləndirmə (Ctrl+J) nizamına uyğun gəlməli;

2.8.4. “Times New Roman” şriftində, ölçüsü 12 və sətirarası intervalı 1 vahid olmaqla “*doc” formatında tərtib olunmalıdır.

2.9. İştirakçılar yazılarını Fondun rəsmi internet saytında yerləşdirilmiş müvafiq müraciət bölməsinə göndərirlər.

2.10. Müsabiqəyə hər jurnalist tərəfindən yalnız bir yazı təqdim edilir.

2.11. Müsabiqəyə təqdim edilmiş yazılar əvvəllər, həmçinin müsabiqənin nəticələri elan olunanadək heç bir yerdə dərc edilməməli, yayımlanmamalı və paylaşılmamalıdır.

2.12. Bu Qaydaların 2.8-ci bəndində nəzərdə tutulmuş yazıların qiymətləndirilməsi Təşkilatçılar tərəfindən cəlb edilmiş müstəqil ekspertlər – müvafiq sahədə zəngin bilik və təcrübəyə, ictimai nüfuza malik, Müsabiqənin nəticəsində marağı olmayan peşəkar şəxslər tərəfindən həyata keçirilir.

2.13. Eyni yazılar iki fərqli ekspert tərəfindən fərdi qaydada aşağıdakı meyarların hər biri üzrə ən aşağı “0”, ən yüksək “10” bal olmaqla qiymətləndirilir və hər bir yazı barədə yazılı rəy verilir:

2.13.1. mətnin məzmununun Təlim-müsabiqənin mövzusuna uyğunluğu;

2.13.2. müəllifin yaradıcı yanaşması, məzmunun ideya orijinallığı və özünəməxsusluğu;

2.13.3. mətnin üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunması;

2.13.4. mətnin məntiqiliyi, tezis və arqumentlərin əsaslandırılmış olması;

2.13.5. təqdim edilən fakt və digər məlumatların dəqiqliyi, istinad olunan mənbələrin mötəbərliyi.

2.14. Ekspertlər tərəfindən yazılara verilən fərdi qiymətlər Təşkilatçılar tərəfindən ümumiləşdirilərək 3 (üç) əsas mükafatçı müəyyən edilir və aşağıdakı qaydada birdəfəlik pul mükafatı ilə mükafatlandırılır:

2.14.1. birinci yer - 1000 (bir min) manat məbləğində;

2.14.2. ikinci yer - 700 (yeddi yüz) manat məbləğində;

2.14.3. üçüncü yer - 500 (beş yüz) manat məbləğində.

2.15. Təşkilatçılar tərəfindən müsabiqə mərhələsinin əsas mükafatçıları sırasında yer almayan, lakin Təlimlər mərhələsində xüsusi fəallıq nümayiş etdirən iştirakçı üçün həvəsləndirici yer nəzərdə tutula bilər.

2.16. Ekspertlər tərəfindən yazılara verilən fərdi qiymətlər Təşkilatçılar tərəfindən ümumiləşdirilərkən bir neçə yazı eyni bal toplayarsa, ekspertlərin müvafiq yazılı rəyləri nəzərə alınır.

2.17. Müsabiqənin nəticəsi barədə məlumat Təşkilatçıların rəsmi internet saytlarında, habelə rəsmi sosial şəbəkə hesablarında yerləşdirilir.

## 3. Təlim-müsabiqənin iştirakçılarına dair tələblər

Təlim-müsabiqədə kütləvi informasiya vasitələrində (dövri mətbu nəşrlərdə, teleradio proqramlarında, informasiya agentliklərində, internet informasiya ehtiyatlarında, kinoxronika proqramlarında) işləyən və “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununun 49-cu maddəsinə əsasən jurnalistin bu Qanunla müəyyən edilmiş statusunun şamil olunduğu şəxslər (kütləvi informasiya vasitəsinin məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etməklə məşğul olan ştatlı müxbirləri və kütləvi informasiya vasitəsinin məlumat toplanması, hazırlanması və redaktəsi ilə bağlı tapşırıqlarını müntəzəm yerinə yetirən ştatdankənar müxbirləri) iştirak edə bilərlər.

## 4. Mükafatlandırılma

Bu Qaydaların 2.14-cü bəndində nəzərdə tutulmuş pul mükafatları mükafatçıların bank hesablarına köçürülür.